**YENİ KİTABLAR**






# Dövlətçilik tariximizin Səfəvilər dövründən bəhs edən dəyərli əsər

**Səfəvilər dövləti Azərbaycan tarixinin mühüm dövrünü təşkil edir. Bu dövr xalqımızın məişət mədəniyyətinin, etnoqrafik xüsusiyyətlərinin formalaşdığı mərhələ kimi tarixi önəm daşıyır. Tarixçi alim Əsgər Əhmədin yeni işıq üzü görmüş “Səfəvilər dövründə din və dini münasibətlər” adlı monoqrafiyası bu baxımdan mühüm aktuallıq kəsb edir.**

Sovet dövründə din və dini baxışlara qoyulan qadağalar elmdə də bu istiqamətdə boşluq yaradırdı. Azərbaycan xalqının orta əsr dini görüşlərinin, mənəvi mədəniyyətinin mənbələr əsasında araşdırılaraq elmi ictimaiyyətə təqdim olunmasında əsər müstəsna əhəmiyyətə malikdir. Etnoqrafik tədqiqatla yanaşı, monoqrafiyada siyasi hadisələrin izahına, dövrün tarixi-fəlsəfi inkişafına geniş yer ayrılıb və ilk dəfə olaraq XVI–XVIII əsrlərdə Azərbaycanın dini-siyasi həyatı ətraflı öyrənilib.

Səfəvilərin hakimiyyəti dövründə tarixi Azərbaycan torpaqlarının bir neçə əsr boyu vahid hakimiyyət altında birləşdirilməsi, ayrı-ayrı bölgələr arasında qarşılıqlı münasibətlər, ənənəvi Şərq dəyərləri ilə yanaşı, Avropa dövlətləri ilə müntəzəm əlaqələr xalqın həyat tərzinə də öz təsirini göstərirdi. Bu baxımdan dövlətin dini siyasəti də mühüm amil sayılırdı.

Monoqrafiya yazılarkən farsdilli, türkdilli qaynaqlara və Avropa memuar mənbələrinə, eləcə də Azərbaycan, Rusiya, İran, Qərb tarixşünaslığına, xüsusən, Türkiyə tarixçilərinin əsərlərinə müraciət olunub. Əsərdə mənbələrə tənqidi münasibət bildirilib və müqayisəli təhlil zəminində nəticələr çıxarılıb. Müəllif haqlı olaraq orta əsr osmanlı tarixçilərinin səfəvilərə qərəzli baxışlarının əsas səbəbinin dini amildən qaynaqlandığını göstərib. Daha çox hökmdarların mədhinə, sarayın tərənnümünə həsr edilən Şərq məxəzlərindən fərqli olaraq, Avropa memuar mənbələrində etnoqrafik bilgilərə geniş yer ayrılıb. Xalq məişətinin, təsərrüfatının, adət-ənənələrinin ətraflı təsvirini verən avropalı səyyahlar Səfəvilər dövlətini, bir qayda olaraq, İran dövlətçiliyi baxımından təqdim ediblər. Əsərdə bu məsələyə də diqqət yetirilib və mövzu azərbaycançılıq ideologiyası əsasında öyrənilib.

İlkin mənbələrə və tədqiqatçıların əsərlərinə söykənərək müəllif elmi baxımdan şiəliyin üstün məzhəbə çevrilməsinin vacib səbəblərini izah edib. Əhalinin sünni ağqoyunlulardan narazılığı, sosial-iqtisadi vəziyyətin ağırlığı, müxtəlif zümrələr arasında Əhli-beytə məhəbbət, Şah İsmayılın şəxsiyyəti və s. amillər yeni məzhəbin sürətlə yayılmasını labüd edirdi. Şiəliyin əhali tərəfindən asanlıqla qəbul edilməsi və yeni məzhəbdəyişmədə ciddi müqavimət hərəkatına rast gəlinməməsinin səbəbləri açıqlanarkən müəllif dövrün siyasi-ictimai vəziyyətinə, xalqın həyat tərzinə, dünyagörüşünə və təsərrüfat məişətinə əsaslanıb. İlk vaxtlar sünni-şafi məzhəbinə söykənən, doqmatik prinsiplərə sadiq qalan, başlıca məqsədləri kamilliyə çatmaq olan təriqət zaman keçdikcə siyasiləşməyə başlayıb və nəticədə, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyulub.

Səfəvilərin şiəliyi dövlət səviyyəsində qəbul etməsi və qızılbaşlıq ideologiyası fəlsəfi görüşlərdə, ədəbiyyatda, memarlıqda, incəsənətin müxtəlif sahələrində dəyişikliyə səbəb olub, o cümlədən, etnoqrafik dəyərlərin formalaşmasına təkan verib. Əhli-beytə məhəbbət, 12 imama, xüsusilə, Həzrət Əliyə və İmam Hüseynə sonsuz sevgi, qeybə çəkilən 12-ci imam, Kərbəla müsibətinin ildönümlərinin matəm şəklində təşkili (Tasua və Aşura mərasimi) və s. mənəvi mədəniyyət sahəsində mövcud ənənələrin yenilənməsi və bəzən yeni yaranması demək idi.

Kitabda islam fiqhi ilə yanaşı, xalqın yerli hüquqyaratması, xalq islamı amillərinin izahatı da verilib. Burada şiəliyin yayılmasında siyasi-ictimai amillərin, həmçinin XV–XVI əsr Azərbaycan şair-mütəfəkkirlərinin ( İ.Nəsimi, Qasimi-Ənvar, M.Füzuli, Xətai və b.) rolu yüksək qiymətləndirilib. Göstərilən dövr Azərbaycan poeziyasında – klassik şeir və aşıq yaradıcılığında (Aşıq Qurbani və b.) Həzrət Əli, İmam Hüseyn, İmam Həsən və digər müqəddəslərin həyatı əsas mövzulardan sayılırdı.

Səfəvi hakimiyyəti şiəliyin elmi şəkildə əsaslandırılması üçün xaricdən şiə din xadimlərini ölkəyə dəvət edib və bununla da, yerli üləma sinfini formalaşdırıb. Tədqiq edilən dövrdə müsəlman ruhaniliyi yeni xüsusiyyətlər qazanıb, ifrat dini görüşlər formalaşıb və onlar siyasi hakimiyyətə kifayət qədər təzyiq göstəriblər. Əsərdə Səfəvi şahlarının ali ruhani zümrəsi ilə münasibətləri, o cümlədən mərkəzi hakimiyyəti gücləndirmək üçün dini cərəyanlar arasındakı ziddiyyətləri aradan qaldıraraq birliyin qorunması faktlarla təhlil olunub. Eyni zamanda, dövlətin digər dinlərə tolerant münasibəti, qeyri-müsəlman icmaların nisbi müstəqilliyini qoruyub saxlaması aydınlaşdırılıb.

Monoqrafiyada Səfəvilər dövründə mövcud bidətçi dərviş təlimləri – qələndərilik, nemətullahilik, heydərilik, nöqtəvilik və s. dini təlimlər, o cümlədən əxilik haqqında da bəhs edilib. Kitabda Qədir-xum, Qurban, Ramazan s. dini bayramların, məhərrəmlik və digər dini mərasimlərin yaranması, tarixi kökləri göstərilib, bayramlarla bağlı adət və inancların elmi şərhi verilib. İslam dini ilə əlaqəli bayram və mərasimlərin izahı təkcə tarixi Azərbaycan coğrafiyası üçün deyil, həm də qonşu müsəlman xalqların tarixini öyrənmək baxımından da əhəmiyyətlidir.

Səfəvilər dövründə dövlətin dini siyasəti təkcə mənəvi mədəniyyətə deyil, həm də maddi mədəniyyətin əksər sahələrinə, eləcə də ailə və ailə məişətinə təsirsiz qalmır: ziyarətgahlara (Məşhəd, Kərbəla, Nəcəf, Şam və s.) əhali axının artması bu şəhərlərə aparan yolların çəkilməsi və təmiri, yolboyu karvansaraların tikilməsi ilə nəticələnib. Tikinti-abadlıq işləri, xüsusilə, I Şah Abbasın (1587-1629) dövründə daha da gücləndirilib. Maddi mədəniyyətin digər sahələrinə nisbətən daha konservativ olan yeməklər və içkilər də bəhs edilən dövrdə dəyişikliyə məruz qalır. Səfəvilər dövrünün geyim mədəniyyəti də özünəməxsusluq təşkil edir. Monoqrafiyada “qızılbaş” termini, səfəvilərin geydikləri “taci-heydəri” adlı qırmızı tacın yaranması ilə bağlı maraqlı fikirlər ortaya qoyulub.

Səfəvilər dövründə cəmiyyətin siyasi-iqtisadi vəziyyəti və mənəvi dünyasındakı dəyişikliklər maddi mədəniyyət sahələrinin əksəriyyətinə təmas edib. Bütün bu yeniliklərin başvermə səbəbləri, onların xalq məişətindəki rolu kitabda etnoqrafik baxımdan araşdırılıb. Tədqiqatda Azərbaycanın mənəvi mədəniyyət istiqaməti üzrə orta əsr tarixi-etnoqrafiyası oxucuya təqdim olunub.

Monoqrafiyanın üstün cəhətlərindən biri də illüstrativ materialların əsərin əyaniliyini artırmasıdır. Mötəbər məxəzlərdən qaynaqlanan, çoxsaylı yerli və xarici tədqiqatlar əsasında yazılan bu əsərdə müəllifin obyektiv, elmi yanaşma tərzi diqqət çəkir. Beləliklə, Əsgər Əhmədin Səfəvilər dövrünün tarixi-etnoqrafiyasına həsr etdiyi monoqrafiyası səfəvişünaslıqda yeni istiqamət açmqla, milli dövlətçilik tariximizin bu önəmli dövrünün yeni ictimai-siyasi reallıqlar baxımından və dərindən araşdırılması işinə layiqli töhfədir.

***İlhamə MƏMMƏDOVA,***
***tarix üzrə elmlər doktoru***

Xalq qəzeti 2020.- 8 mart.- S.6.